# İbrahim






YARADILIŞ 10:25; 11:10-25






YARADILIŞ 11:26-32




YARADILIŞ 12:1-3


BELƏLİKLƏ, İBRAM ALLAHIN SÖZÜ İLƏ HARRANDAN ÇIXDI.
ONLAR KƏNAN TORPAĞINA YOLLANDILAR.
İBRAM MORE PALIDININ YANINA ÇATDI. BURADA ALLAH ONA DEDİ:
BU TORPAĞI SƏNİN NƏSLİNƏ VERƏCƏYƏM.
NƏSLİMƏ?
BURADA SƏN MƏNƏ GÖRÜNDÜN. BURADA SƏNƏ BİR QURBANGAH DÜZƏLDƏCƏYƏM.




YARADILIŞ 12:10-15






YARADILIŞ 12:16-17




YARADILIŞ 12:18-13:4


SÜRÜLƏRİNİ SAXLA. BİZİM SÜRÜLƏR SU İÇİB GEDƏNDƏN SONRA ONLAR GƏLƏ BİLƏR!
SİZİN SÜRÜLƏR BİZİMKİNDƏN YAXŞIDIR? LOTUN DA MAL-QARASI SU İÇMƏLİDİR.
SAHİB AĞAMIZ İBRAMDIR, O DAHA BÖYÜKDÜR. ONUN SÜRÜLƏRİ BİRİNCİ OLMALIDIR. İNDİ İSƏ GEDİN!
ƏMİ, ÇOBANLARIMIZ DALAŞIRLAR. SÜRÜLƏRİMİZ ÇOX BÖYÜKDÜR. BU TORPAQ HƏR İKİMİZƏ SIĞMIR. MƏN KÖÇMƏLİYƏM.
ARAMIZDA MÜBAHİSƏ OLMAMALIDIR. BİZ QOHUMUQ. SƏNİN ÇOBANLARIN İLƏ MƏNİM ÇOBANLARIM ARASINDA MÜBAHİSƏ OLMAMALIDIR... MƏNİMLƏ GƏL.
BİZ AYRILMALIYIQ. BÜTÜN TORPAQ SƏNİN QARŞINDADIR.
İSTƏDİYİN YERİ ÖZÜN SEÇ. SƏN SAĞA GETSƏN MƏN SOLA GEDƏCƏYƏM. SƏN SOLA GETSƏN, MƏN SAĞA GEDƏCƏYƏM.
BURAYA. MƏN İORDAN ÇAYININ SAHİLİNDƏ SUYU BOL OLAN YERİ SEÇİRƏM. GEDİB SODOM VƏ HOMORRANN YANINDA YAŞAYACAĞAM.
ƏZİZ BALA, DEDİYİN KİMİ OLSUN. ÖZ ÇADIRLARIMI ORADAN UZAQDA, MAMRE AĞACLARININ YANINDA QURACAĞAM.
ONDA ADAMLARIMIZIN ARASINDA SÜLH OLACAQ.




YARADILIŞ 14:1-14


KİŞİLƏRDƏN BİR NƏFƏR BU XƏBƏRİ GƏTİRDİ: PADŞAHLAR ŞAVE VADİSİNDƏ GECƏLƏMƏK ÜÇÜN DAYANIB-LAR. ÇOX GÜMAN Kİ, LOT AİLƏSİ İLƏ BİRLİKDƏ ONLARLADIR.
YAXŞI, "PADŞAH VADİ"SİNDƏDİRLƏR. BÖLÜŞÜB GEDƏCƏYİK. QARANLIQDA QƏFİL HÜCUM EDƏCƏYİK.


EEYAHH!!!


ƏMİ, BİZİ QURTARMAĞA GƏLMİSƏN!


BU, SALEM PADŞAHI MELKİSEDEQDİR. SODOM PADŞAHI DA ONUNLADIR.




YARADILIŞ 14:18-22


EY İBRAM, QORXMA. SƏNİN QALXANIN MƏNƏM. MÜKAFATIN ÇOX BÖYÜK OLACAQ.
EY XUDAVƏND RƏBB, MƏNƏ NƏ VERƏCƏKSƏN? MƏNİM ÖVLADIM YOXDUR.
SƏN MƏNƏ ÖVLAD VERMƏDİYİN ÜÇÜN EVİMİN NÖKƏRİ ELİEZER MƏNİM VARİSİM OLACAQ.
NÖKƏRİN SƏNİN VARİSİN OLMAYACAQ, ÖZ ÖVLADIN SƏNİN VARİSİN OLACAQ.
GƏL... ÇIX ÇÖLƏ.
GÖYƏ BAX, ORADAKI ULDUZLARI SAYA BİLƏRSƏNSƏ, SAY.
NƏSLİN O QƏDƏR OLACAQ.
İBRAM RƏBBƏ İMAN ETDİ VƏ RƏBB BUNU ONA SALEHLİK SAYDI.
YA XUDAVƏND RƏBB, BU TORPAĞI İRS OLARAQ ALACAĞIMI NECƏ BİLİM?
MƏNİM ÜÇÜN BİR ÜÇYAŞLI DÜYƏ, BİR ÜÇYAŞLI KEÇİ, BİR ÜÇYAŞLI QOÇ, HƏMÇİNİN BİR QUMRU VƏ BİR GÖYƏRÇİN BALASI GƏTİR.




YARADILIŞ 15:10-13









YARADILIŞ 15:14-21




YARADILIŞ 16:1-4


MƏNƏ MEYVƏ ŞİRƏSİNİ GƏTİR BU ÇÖRƏKLƏ İÇİM.
GƏTİRMƏYƏCƏYƏM. ƏRİN ÜÇÜN SAĞLAM ÖVLAD DÜNYAYA GƏTİRMƏK ÜÇÜN İSTİRAHƏT ETMƏLİYƏM.
BU ÖVLAD MƏNİM OLACAQ, MƏN ONU BÖYÜDƏCƏYƏM.
AĞAM İBRAMA HƏMİŞƏ ARZULADIĞI ÖVLADI SƏN VERƏ BİLMƏDİN. ÖVLADI DÜNYAYA MƏN GƏTİRƏCƏYƏM.
MƏNİM TƏHQİR OLUNMAĞIMA SƏN SƏBƏB OLDUN. MƏN QARABAŞIMI SƏNİN QOYNUNA VERDİM, O DA HAMİLƏ OLDUĞUNU GÖRƏNDƏ MƏNƏ HƏQARƏTLƏ BAXMAĞA BAŞLADI.
QOY SƏNİNLƏ MƏNİM ARAMDA RƏBB HÖKM ETSİN.
BUNU SƏNİN XAHİŞİNLƏ ETDİM.
QARABAŞINI SƏNİN İXTİYARINA VERİRƏM, ONA NƏ İSTƏYİRSƏN, ELƏ.
AY TƏNBƏL QARABAŞ, SƏHƏR TAPŞIRDIĞIM YEMƏYİ HAZIRLA, YA DA SƏNƏ YERİNİ GÖSTƏRƏCƏYƏM!
SƏN HEÇ KİMSƏN. UŞAĞI ƏLİNDƏN ALACAĞAM, HEÇ VAXT ONA TOXUNA DA BİLMƏYƏCƏKSƏN.




YARADILIŞ 16:7-16



KÜLLİ-İXTİYAR ALLAH MƏNƏM. MƏNİM YOLUMLA GET VƏ KAMİL OL.
MƏN SƏNİNLƏ ƏHD BAĞLAMIŞAM, SƏN ÇOXLU MİLLƏTİN ATASI OLACAQSAN.
DAHA SƏNƏ İBRAM DEYİLMƏYƏCƏK, BU GÜNDƏN ADIN İBRAHİM OLACAQ, ÇÜNKİ SƏNİ ÇOXLU MİLLƏTİN ATASI ETDİM.
NƏSLİNİ LAP ÇOXALDACAĞAM, SƏNDƏN MİLLƏTLƏR TÖRƏDƏCƏYƏM VƏ NƏSLİNDƏN PADŞAH-LAR ÇIXACAQ.
ÖZÜMLƏ SƏNİN VƏ NƏSLİNİN ARA-SINDA ƏBƏDİ ƏHD QOYURAM Kİ, MƏN SƏNİN VƏ NƏSLİNİN ALLAHI OLACAĞAM.
SƏNƏ VƏ SƏNDƏN SONRAKI NƏSLİNƏ QƏRİB KİMİ YAŞADIĞIN BU TOR-PAĞI – BÜTÜN KƏNAN TORPAĞINI ƏBƏDİ MÜLK OLARAQ VERƏCƏYƏM VƏ ONLARIN ALLAHI OLACAĞAM.
SƏN VƏ SƏNDƏN SONRAKI ÖVLADLARIN NƏSİLLƏR BOYU ƏHDİMƏ ƏMƏL EDİN. ARANIZDA OLAN BÜTÜN KİŞİLƏR SÜNNƏT OLUNSUN.
YARADILIŞ 17:1-14


ARVADIN SARAYA İSƏ ARTIQ SARAY DEMƏ. BUNDAN SONRA ONUN ADI SARA OLACAQ.
ONA XEYİR-DUA VERƏCƏYƏM, ONDAN SƏNƏ BİR OĞUL VERƏCƏYƏM. SARAY MİLLƏTLƏRİN ANASI OLACAQ VƏ XALQLARIN PADŞAHLARI ONDAN DOĞULACAQ.
YÜZ YAŞLI ADAMIN OĞLU OLA BİLƏRMİ? DOXSAN YAŞINDA OLAN SARA DOĞACAQMI?
KAŞ Kİ İSMAİL SƏNİN ÖNÜNDƏ XEYİR-DUA ALAYDI!
XEYR, ARVADIN SARA SƏNƏ BİR OĞUL DOĞACAQ VƏ ADINI İSHAQ QOYACAQSAN. ONUNLA VƏ ONDAN SONRAKI NƏSLİ İLƏ ƏHDİMİ ƏBƏDİ OLARAQ DAVAM ETDİRƏCƏYƏM.
İSMAİL BARƏDƏ DEDİYİN SÖZLƏRİ DƏ EŞİTDİM. ONA XEYİR-DUA VERƏCƏYƏM, ONU BƏHƏRLİ EDƏCƏYƏM, NƏSLİNİ LAP ÇOXALDACAĞAM. O, ON İKİ BAŞÇININ ATASI OLACAQ. ONDAN BÖYÜK BİR MİLLƏT TÖRƏDƏCƏYƏM.
ƏHDİMİ İSƏ GƏLƏN İL BU VAXT SARANIN SƏNƏ DOĞACAĞI İSHAQLA SAXLAYACAĞAM.
BU GÜN ALLAHA TABE OLARAQ, TƏKCƏ İSMAİL VƏ MƏN DEYİL, EVİMDƏKİ BÜTÜN KİŞİLƏR SÜNNƏT OLUNMALIDIR. ALLAH BUNU ƏMR ETMİŞDİR.
YARADILIŞ 17:15-27


EY AĞAM, ƏGƏR İNDİ GÖZÜNDƏ LÜTF TAPDIMSA, QULUNUN YURDUNDAN YAN KEÇMƏ. İNDİ BİR AZ SU GƏTİRƏRLƏR, AYAQLARINIZI YUYUB, AĞAC ALTINDA DİNCƏLƏRSİNİZ.
MƏN İSƏ BİR PARÇA ÇÖRƏK GƏTİRƏRƏM Kİ, CANINIZA QÜVVƏT GƏLSİN.
DEDİYİN KİMİ ELƏ.
TEZ OL, NARIN UN GÖTÜRÜB XƏMİR YOĞUR VƏ KÖKƏ BİŞİR.
BU KÖRPƏ VƏ YAXŞI BUZOVU KƏSİB TEZ HAZIRLAYIN.


ARVADIN SARA HARADADIR?
BURADA ÇADIRDADIR.
GƏLƏN İL BU VAXT YENƏ DƏ SƏNİN YANINA GƏLƏCƏYƏM. ONDA ARVADIN SARANIN BİR OĞLU OLACAQ.
QOCALDIĞIM HALDA MƏNƏ BELƏ ŞADLIQ ÜZ VERƏ BİLƏRMİ? AĞAM DA QOCADIR.
SARA NƏ ÜÇÜN "QOCALDIQDAN SONRA MƏN UŞAQ DOĞA BİLƏRƏMMİ?" DEYİB GÜLDÜ?
RƏBB ÜÇÜN ÇƏTİN BİR ŞEY VARMI?
GƏLƏN İL BU VAXT MƏN YENƏ SƏNİN YANINDA OLACAĞAM VƏ SARANIN BİR OĞLU OLACAQ.
GÜLMƏDİM.
XEYR, GÜLDÜN.
BİZ GETMƏLİYİK.
GƏLİN SİZİ YOLA SALIM. GÖRÜRƏM, SODOMA TƏRƏF BAXIRSINIZ.






YARADILIŞ 18:16-26


MƏN ÖNÜNDƏ TOZ VƏ KÜL KİMİ BİR ŞEY OLSAM DA, İNDİ BUNU RƏBBƏ SÖYLƏMƏYƏ CƏSARƏT EDİRƏM:
ƏLLİ NƏFƏRDƏN BEŞ NƏFƏR AZ SALEH ADAM TAPILSA, BEŞ NƏFƏR ƏSKİK OLDUĞU ÜÇÜN BÜTÜN ŞƏHƏRİ MƏHV EDƏRSƏNMİ?
ƏGƏR ORADA QIRX BEŞ NƏFƏR TAPSAM, ŞƏHƏRİ DAĞITMAYACAĞAM.
ƏGƏR ORADA QIRX NƏFƏR TAPILSA, NECƏ?
QIRX NƏFƏRİN DƏ XATİRİNƏ BUNU ETMƏRƏM.
ÇOX DANIŞDIĞIM ÜÇÜN RƏBB QƏZƏBLƏNMƏSİN:
ƏGƏR ORADA OTUZ NƏFƏR TAPILSA, NECƏ?
ƏGƏR ORADA OTUZ NƏFƏR DƏ TAPILSA, BUNU ETMƏRƏM.
MƏN YENƏ DƏ RƏBBƏ BUNU SÖYLƏMƏYİ CƏSARƏT EDİRƏM: ORADA İYİRMİ NƏFƏR TAPILSA, NECƏ?
İYİRMİ NƏFƏRİN DƏ XATİRİNƏ ORANI MƏHV ETMƏRƏM.
QOY RƏBB QƏZƏBLƏNMƏSİN Kİ, MƏN SON DƏFƏ DANIŞACAĞAM.
ORADA ON NƏFƏR TAPILSA, NECƏ?
ON NƏFƏRİN DƏ XATİRİNƏ ORANI MƏHV ETMƏRƏM.


AĞALARIM, QULUNUZUN EVİNƏ GİRİB GECƏLƏYİN VƏ AYAQLARINIZI YUYUN. SƏHƏR QALXIB YOLUNUZA DAVAM EDƏRSİNİZ.
YOX, BİZ GECƏNİ ŞƏHƏR MEYDANINDA KEÇİRƏCƏYİK.
BELƏ ŞEY HEÇ CÜR OLA BİLMƏZ. QONAĞIM OLACAQSINIZ.
İLDİT – QONAĞIMIZ VAR, UZAQDAN GƏLİBLƏR. TEZ ONLARA YEMƏK BİŞİR.
BU GECƏ SƏNİN YANINA GƏLƏN ADAMLAR HARADADIR?
ONLARI BİZİM YANIMIZA GƏTİR Kİ, ONLARLA YAXINLIQ EDƏK.
HƏ, HƏ, HƏ. BİZ HAZIRIQ.




YARADILIŞ 19:6-11




YARADILIŞ 19:12-14




YARADILIŞ 19:15-23


ŞƏHƏRDƏ HƏTTA ON NƏFƏR TAPMAYAN
ALLAH DEDİYİ KİMİ, MƏHVİ YAĞDIRDI.


ALLAH ŞƏHƏRLƏRİN ÜZƏRİNƏ GÖYDƏN ODLU KÜKÜRD YAĞDIRDI, BU ŞƏHƏRLƏRİ, BÜTÜN DÜZƏNLİYİ, ORANIN BÜTÜN SAKİNLƏRİNİ VƏ TORPAQDA BİTƏN HƏR ŞEYİ MƏHV ETDİ.
YARADILIŞ 19:24-25






YARADILIŞ 19:26-29




YARADILIŞ 19:30-38


BU VAXT İBRAHİM BAŞQA ƏRAZİYƏ KÖÇÜRDÜ.
BU QADIN ÇOX GÖZƏLDİR.
BƏLİ, BACIMDIR.
FİLİŞTLİLƏRİN TORPAĞINDAN KEÇƏNDƏ İBRAHİM YENƏ DƏ, ALLAHA ETİBAR ETMƏK ƏVƏZİNƏ İNSANLARDA SƏHV TƏƏSSÜRAT YARATDI.
BU ƏRLİ QADINDIR. ONU EVİNƏ GƏTİRDİYİNƏ GÖRƏ ÖLƏCƏKSƏN.
BUNU TƏMİZ VİCDANLA ETMİSƏN. ANCAQ ONU QAYTAR, O, PEYĞƏMBƏRİN ARVADIDIR.
QAYTARMASAN, ÖLƏCƏKSƏN.
BİZƏ NƏ ETDİN? SƏNƏ QARŞI NƏ GÜNAH ETDİM Kİ, ÖZÜMÜN VƏ PADŞAHLIĞIMIN ÜZƏRİNƏ BU BÖYÜK TƏQSİRİ GƏTİRDİN?
DÜŞÜNDÜM Kİ, BURADA ALLAH QORXUSU YOXDUR VƏ ARVADIMA GÖRƏ MƏNİ ÖLDÜRƏCƏKLƏR.
O, DOĞRUDAN DA, MƏNİM BACIMDIR: ATAMIZ BİRDİR, ANCAQ ANAMIZ AYRIDIR.
İBRAHİM, SƏNƏ QOYUN-KEÇİ, MAL-QARA, QULLAR VƏ QARABAŞLAR VERİRƏM. ÖLKƏM SƏNİN ÖNÜNDƏDİR: İSTƏDİYİN YERDƏ YAŞAYA BİLƏRSƏN.
BAX QARDAŞINA MİN PARÇA GÜMÜŞ VERDİM. BU GÜMÜŞ GÜNAHSIZLIĞINI GÖSTƏRƏN BİR SÜBUT OLSUN.
MƏNİM VƏ EVİM ÜÇÜN DUA EDİN, ÇÜNKİ SİZ BURAYA GƏLƏNDƏN HEÇ BİR QADIN HAMİLƏ QALMIR.




YARADILIŞ 21:1-7






YARADILIŞ 21:8-13




YARADILIŞ 21:14-21


O TORPAĞIN PADŞAHI AVİMELEK VƏ ONUN ORDU BAŞÇISI İBRAHİMLƏ GÖRÜŞMƏYƏ GƏLDİLƏR.
BİLİRİK Kİ, SƏN NƏ ETSƏN, ALLAH SƏNİNLƏDİR.
İNDİ BURADA ALLAHIN HAQQINA MƏNƏ AND İÇ Kİ, NƏ MƏNƏ, NƏ OĞLUMA, NƏ DƏ NƏVƏMƏ XƏYANƏT EDƏCƏKSƏN: MƏN SƏNƏ SADİQ OLDUĞUM KİMİ SƏN DƏ MƏNƏ VƏ QALDIĞIN TORPAĞIN ADAMLARINA SADİQ OL.
MƏN AND İÇİRƏM.
AĞAMIZ İBRAHİM DEYİR Kİ, SƏNİN ÇOBANLARIN AĞAMIZ İBRAHİMİN QAZDIĞI SU QUYUSUNU QƏSB EDİBLƏR.
XƏBƏRİM YOXDUR BU İŞDƏN. QUYU AĞANIZ İBRAHİMƏ QAYTARILACAQ. ÖZÜM ONUN YANINA GEDƏCƏYƏM.
AYIRIB QOYDUĞUN BU YEDDİ DİŞİ QUZU NƏ ÜÇÜNDÜR?
BUNLARI MƏNDƏN GÖTÜR Kİ, BU QUYUNU QAZDIĞIMA ŞƏHADƏT OLSUN.
AİLƏLƏRİMİZİN ARASINDA HƏMİŞƏ SÜLH OLACAQ.
PADŞAH FİLİŞT TORPAĞINA QAYITDI, İBRAHİM İSƏ BEER-ŞEVADA BİR YULĞUN AĞACI ƏKDİ.
ORADA ƏBƏDİ ALLAH OLAN RƏBBİN ADINI ÇAĞIRDI.




YARADILIŞ 22:1-3





YARADILIŞ 22:4-8


İBRAHİM QURBANGAH DÜZƏLTDİ...
QURBANGAHIN ÜZƏRİNƏ ODUNU DÜZDÜ...
OĞLU İSHAQIN ƏL-QOLUNU BAĞLADI...
SONRA ONU QURBANGAHA QOYDU.


İBRAHİM ƏLİNİ UZADIB OĞLUNU KƏSMƏK ÜÇÜN BIÇAĞI GÖTÜRDÜ.




YARADILIŞ 22:11-14


RƏBB BƏYAN EDİR: "ÖZ VARLIĞIMA AND İÇİRƏM Kİ, SƏN BU İŞİ ETDİYİNƏ VƏ YEGANƏ OĞLUNU ƏSİRGƏMƏDİYİNƏ GÖRƏ MƏN SƏNƏ BÖYÜK XEYİR-DUA VERƏCƏYƏM, NƏSLİNİ GÖYDƏKİ ULDUZLAR VƏ DƏNİZ KƏNARINDAKI QUM QƏDƏR ARTIRIB ÇOXALDACAĞAM. SƏNİN NƏSLİN ÖZ DÜŞMƏNLƏRİNİN ŞƏHƏRLƏRİNƏ SAHİB OLACAQ.
DÜNYANIN BÜTÜN MİLLƏTLƏRİ SƏNİN NƏSLİNİN VASİTƏSİLƏ XEYİR-DUA ALACAQ, ÇÜNKİ SƏN MƏNİM SÖZÜMƏ QULAQ ASDIN.


SONRA İBRAHİM ÖZ NÖKƏRLƏRİNİN YANINA QAYITDI VƏ ONLAR QALXIB BEER-ŞEVAYA GETDİLƏR.